# Fransanın Rön-Alpes regionunun senatoru və Turizm üzrə prezidenti Jean Bessonun rəhbərlik etdiyi nümayəndə heyəti Qəbələdə

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Fransanın Rön-Alpes regionunun senatoru və Turizm üzrə prezidenti Jean Besson rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına səfəri çərçivəsində Qəbələ rayonunda olmuşdur. Qonaqları rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qəbul etmişdir.



Qəbul zamanı qonaqların diqqətinə çatdırılmışdır ki, bu gün Azərbaycan Respublikasında gedən sürətli sosial-iqtisadi inkişaf tempini Qəbələ rayonunun simasında da aydın görmək olar. Qəbələ gözəl və füsunkar, tarixi bir məkan olduğunu qeyd edən RİH başçısı rayonda yaradılmış istehsal müəssisələrinin, kənd təsərrüfatı və heyvandarlıq komplekslərinin, turizm sektorunun və digər sahələrin rayonun iqtisadi inkişafında müstəsna əhəmiyyətə malik olduğunu vurğulamışdır. Bildirilmişdir ki, bu gün Qəbələ respublikadaxili tədbirlərlə yanaşı beynəlxalq tədbirlərə də ev sahibliyi edir.

Fransanın Turizm üzrə prezidenti Jean Besson çıxış edərək turizm sektorunun Fransada böyük prroritet sahə olduğunu qeyd etmişdir. Daha sonra nümayəndə heyəti rayonda yeni inşa olunan "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin tikintisinə baxış keçirmiş, sonra qonaqlar «Qəbələ» futbol klubunun stadionlar kompleksi, yeni inşa olunan futbol akademiyasının inzibati binası ilə, habelə 15.000 yerlik stadion üçün ayrılmış ərazidə görüləcək işlərlə yaxından tanış olmuşdur.

Rayonda insanların şən və mənalı istirahəti üçün hər bir şərait yaradıldığını və burada yüksək sosial-iqtisadi inkişafın şahidi olduqlarını qeyd edən nümayəndə heyətinin üzvləri bu yerlərin gözəl bir məkan olduğunu vurğulamışlar.

**Zahir KƏRİMOV.**
**Foto S. Umuyevindir.**

# Polis işçilərinin peşə bayramı

İyul ayının 2-də Qəbələ polisinin əməkdaşları peşə bayramlarına şəhərin mərkəzində



ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə əklil və tər gül dəstələri qoymaqla başladılar. Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, hüquq mühafizə orqanlarının rəhbərləri, hazırda təqaüddə olan polis veteranları da iştirak edirdi. Tədbir iştirakçıları ulu öndərin əziz xatirəsini ehtiramla yad etdikdən sonra Heydər Əliyev Mərkəzinə gəlmişlər. Mərkəzin direktoru Xəyalə İsayeva muzey əməkdaşları adından polis əməkdaşlarının peşə bayramlarını təbrik etmişdir. Polis işçiləri muzeyin ekspozisiya zalında Heydər Əliyevin keçdiyi həyat yolları, siyasi fəaliyyətini əks etdirən fotostendlərlə tanış olmuşlar.




Polis əməkdaşlarının bayram tədbiri şöbənin iclas salonunda davam etdirilmişdir. Tədbiri rayon polis şöbəsinin rəisi polis polkovnik-leytenantı Ehtibar Abduyev açmışdır.

Ehtibar Abduyev polis əməkdaşlarını 2 iyul—Polis İşçilərinin Peşə Bayramı Günü münasibətilə təbrik etmiş, onlara xidməti vəzifələrinin yerinə yetirilməsində nailiyyətlər arzulamışdır.

Tədbirdə Ehtibar Abduyev Azərbaycan polisinin keçdiyi 95 illik şanlı yol haqqında məruzə etmişdir. O, bildirmişdir ki, bu tarixi yol 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandığı dövrdən başlamışdır. Polis orqanları müstəqil Azərbaycan dövlətinin formalaşmasında, milli maraqların qorunması və gücləndirilməsində çox böyük yol keçmişdir. 2 iyul gününün Polis İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Cənab Prezidentimiz İlham Əliyev Heydər Əliyev nəzəri irsini bu gün xüsusi bacarıqla inkişaf etdirir, ölkədə ictimai asayişin qorunması uğurla davam edir, hər bir sahədə sabitlik hökm sürür. Qəbələ polisi öz peşəkarlığının artırılmasına daim diqqət yetirir. Qəbələnin sürətli sosial-iqtisadi inkişafı tələb edir ki, cinayətkarlığa qarşı mübarizə tədbirləri, asayişin mühafizəsi daha da gücləndirilsin.

Ehtibar Abduyev çıxışında qeyd etdi ki, Qəbələ polisi bundan sonra da rayonda əmin-amanlığı təmin edəcək, cinayətkarlığa qarşı mübarizədə, ümumiyyətlə asayişin keşikçisi kimi öz işini cənab Prezident İlham Əliyevin, dövlətin tələb etdiyi səviyyədə, müasir tələblərə uyğun quracaqdır.

Sonra Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən, bölgələrdən, rayon təşkilatlarından göndərilmiş məktub və təbrik teleqramları şəxsi heyətə çatdırılmışdır.

Tədbirin rəsmi hissəsinin sonunda şəxsi heyətin ən fəal və yüksək səviyyəli xidmət göstərən bir qrup əməkdaşı mükafatlandırıldı. Polis veteranlarına isə hədiyyələr verilmişdir.

Polis veteranlarından Nurəddin Tağıyev, Nadir Vəliyev, Nizami Həmidov və başqaları çıxış edərək onlara, ümumilikdə polis işçilərinə göstərdiyi diqqət və qayğıya görə şöbənin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Tədbiri şöbənin rəisi, polkovnik-leytenant Ehtibar Abduyev yekunlaşdırdı.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Serbiyalı qonaqlar rayonumuzda

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə səfərdə olan Serbiya Respublikasının Gənclər və İdman Naziri xanım Alisa Mariçin başçılıq etdiyi nümayəndə heyətinin



üzvləri tanışlıq məqsədilə Qəbələ rayonunda olmuşlar.

Nümayəndə heyətinin üzvləri Qəbələ Olimpiya İdman Kompleksində Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə görüşmüşlər. Qonaqlara məlumat verilmişdir ki, kompleks 2011-ci ilin noyabr ayında istifadəyə verilmişdir. Kompleksdə idman zalı, üzgüçülük hovuzu, trenajor zalları, tennis və mini-futbol kortu, stadion fəaliyyət göstərir. Olimpiya İdman Kompleksində hal-hazırda boks, üzgüçülük, atletika, sərbəst və yunan-roma güləşi, voleybol, futbol, cüdo idman bölmələri vardır ki, burdada yeniyetmə və gənclər müntəzəm olaraq idmanla məşğul olurlar.

Daha sonra qonaqlar rayonun Bum qəsəbəsində olan stend və ox atıcılığı kompleksinə baxış keçirmişlər. Məlumat verilmişdir ki, burada atıcılıq idmanının daha çox yayılan və olimpiya oyunlarına daxil edilən stend atıcılığına da xüsusi yer ayrılmışdır.

Serbiyalı nümayəndə heyəti "Qəbələ" Futbol Klubunun bazası ilə də yaxından tanış olmuşdur. Diqqətə çatdırılmışdır ki, "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafı"na dair Dövlət Proqramında nəzərdə tutulan işlərin yerinə yetirilməsi məqsədilə təsis edilmiş "Qəbələ" Peşəkar Futbol klubu Azərbaycan Premyer liqasında uğurla çıxış edir. Futbol klubunun bazası yenilənərək futbolçuların təlim-məşq proseslərini yüksək səviyyədə keçmələri üçün ərazidə FİFA və UEFA-nın tələblərinə cavab verən 5 ədəd təbii örtüklü və 4 ədəd süni örtüklü futbol meydançası tikilib istifadəyə verilmiş, hal-hazırda 15000 yerlik üstüörtülü stadionun inşaası üçün ayrılmış sahədə hazırlıq işləri görülür.

Görüşdə qonaqları maraqlandıran suallara ətraflı cavablar verilmişdir. Sonda Serbiyalı nümayəndə heyəti zəngin təəsüratla Şəki şəhərinə yola düşmüşlər.

**Mübariz AĞAYEV,**
**GİI-nin aparıcı məsləhətçisi.**
**Foto S. Umuyevindir.**